# Memarlıq və dizayn şöbəsi üzrə test tapşırıqları

1. Tikinti layihəsinin rəhbərini (baş memarını və ya baş mühəndisini) kim təyin edir?

A) Layihəçi

B) Sifarişçi

C) Podratçı

D) Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum

E) İcraçı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi

2. Tikinti obyektlərinin mühəndis-kommunikasiya komponentlərinin tikinti obyektinin hansı sahələrində yerləşdirilməsi qadağandır?

A) Zirzəmilərdə

B) Yeraltı tikililərdə

C) Əsas fasadlarında

D) Tikinti obyektlərinin daxilində

E) Görsənməyən sahələrdə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi

3. 1. Tikinti ərazisinin baş planı; 2. Memarlıq-planlaşdırma və konstruksiya bölməsi; 3. Tikinti obyektinin istismarı layihəsi; 4. Mühəndis-kommunikasiya təminatı bölməsi; 5. Smeta bölməsi; 6. Tikilmiş obyektin mülkiyyət sənədləri. Yuxarıdakılardan hansıları tikinti layihələrinin tərkibinə daxil edilir?

A) 1, 2, 4, 5

B) 3, 4, 5, 6

C) 2, 3, 4, 6

D) 1, 2, 3, 4

E) 2, 3, 5, 6

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi

4. Aşağıdakılardan hansı ümumi ərazi planlaşdırılmasının məqsədlərindən biri ola bilməz?

A) İnsan üçün əlverişli, sağlam və təhlükəsiz yaşayış, iş və istirahət mühitinin yaradılması

B) Ayrı-ayrı ərazilərin səciyyəvi xüsusiyyətlərinin qorunub saxlanılması

C) Mədəni irs obyektlərinin qorunması

D) Yerli memarlıq-tikinti ənənələrindən, landşaft və ya məkan görünüşündən səmərəli istifadənin təmin edilməsi

E) Tarixi, mədəni və ekoloji xüsusiyyətlərə sahib ərazilərdə sıx məskunlaşmanın təmin edilməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi

5. Şəhərlərin və digər yaşayış məntəqələrinin ərazidən istifadənin planlaşdırılması çərçivəsində hazırlanan sənədlər necə adlanır?

A) Ümumi plan

B) Müfəssəl plan

C) Ərazi planı

D) Baş plan

E) Tikinti planı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi

6. Tikinti ərazisinin sərhədləri daxilində ara məsafəsi
harada saxlanılmalıdır?

A) Qonşu sahələrdəki binalara qədər

B) Tikinti ərazisindəki obyektlər arasında

C) Tikinti ərazisinin sərhədləri ilə qonşu ərazilərin sərhədləri arasında

D) Binanın xarici divarlarından ərazinin sərhədinə qədər

E) Tikinti ərazisinin sərhədləri daxilində ara məsafəsinin saxlanılması tələbi yoxdur

Testin çətinlik dərəcəsi: orta

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

7. Tikinti ərazisinin sərhədləri daxilində hansı sahədə yerüstü tikinti obyektlərinin inşasına yol verilmir?

A) Tikinti ərazisinin sərhədləri daxilində

B) Yaşayış məntəqələrinin müfəssəl planında inşasına icazə verilmiş sahələrdə

C) Tikinti ərazisinin sərhədləri daxilində ara məsafəsi kimi saxlanılan sahələrin üzərində

D) İnşası davam edən obyektə bitişik köməkçi qurğuların tikintisinə

E) Tikinti ərazisinin sərhədləri daxilində inşaat işlərinin aparılmasına hər hansı məhdudiyyət tətbiq edilmir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

8. Hansı hallarda torpaq sahələrinin sərhədlərindəki binaların xarici divarları önündə ara məsafəsinin saxlanılması zəruri deyildir?

A) Tikinti obyektinin torpaq sahəsinin sərhədində tikilməsi müfəssəl planda nəzərdə tutulduqda

B) Qonşu torpaq sahəsindəki tikintinin sahibi buna etiraz etmədikdə

C) Torpaq sahəsinin ölçüləri tikinti obyektini yerləşdirmək üçün kifayət etmədikdə

D) Tikinti obyektinin sahibi bundan irəli gələcək risklərlə bağlı rəsmi öhdəlik götürdükdə

E) Tikinti obyektinin torpaq sahəsinin sərhədində tikilməsi yolverilməzdir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

9. Aşağıda göstərilənlərdən hansları tam şəkildə ara məsafələri kimi istifadə olunmur?

A) Şəhər avtomobil
yollarının torpaq sahələri

B) Ümumi istifadədə olan yaşıllıqlar

C) Tikinti obyektlərinin yerləşdiyi torpaq sahələrinin sərhədindəki hər iki tərəfdən becərilə bilən torpaq zolağı

D) Bələdiyyə avtomobil
yollarının torpaq sahələri

E) Ümumi istifadədə olan su sahələri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

10. Ara məsafəsi qeyd edilənlərdən hansına əsasən müəyyən edilir?

A) Torpaq sahəsinin ölçülərinə

B) Binanın yerləşdiyi əraziyə

C) Binanın təyinatına

D) Torpaq ehtiyacının dərəcəsinə

E) Binanın xarici divarının hündürlüyünə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

11. Ara məsafəsi müəyyənləşdirilərkən hansı damların və frontonların tam hündürlüyü divarın hündürlüyünə əlavə edilir?

A) 70 dərəcədən artıq mailliyə malik olan

B) 60 dərəcədən az mailliyə malik olan

C) 45 dərəcəyədək mailliyə malik olan

D) Bütün dam və frontonların

E) Damların və frontonların hündürlükləri divarın hündürlüyünə əlavə edilmir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

12. Sənaye ərazilərində divar hündürlüyünün hansı hissəsi ara məsafəsi olaraq qəbul olunur?

A) 0,1 hissəsi

B) 0,25 hissəsi

C) 0,3 hissəsi

D) 0,4 hissəsi

E) 0,6 hissəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

13. Hansı binalarda ara məsafəsi olaraq divar hündürlüyünün 0,4 hissəsi qəbul olunur?

A) Bütün yaşayış sahələrində

B) Sənaye ərazilərində

C) Xüsusi yaşayış ərazilərində

D) Fərdi yaşayış evlərində

E) Yalnız sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün nəzərdə tutulmuş ərazilərdə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

14. Fərdi yaşayış evlərinə münasibətdə divar hündürlüyünün hansı hissəsi ara məsafəsi kimi qəbul olunur?

A) 0,3 hissəsi

B) 0,4 hissəsi

C) 0,7 hissəsi

D) 1:1 nisbətində

E) 1, 3 hissəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

15. Ara məsafələrinin hesablanması zamanı aşağıdakılardan hansı nəzərə alınır?

A) Divar səthindən 1,5 metrə qədər irəli çıxan karnizlər

B) Xarici divarın səthindən 2,0 metrdən artıq irəli çıxmayan və ərazinin sərhədindən ən azı 2,0 metr məsafədə yerləşən tam işıqburaxan tikinti materialından hazırlanmış divar və bina hissələri

C) Divar səthindən 1,5 metrə qədər irəli çıxan dayaqsız giriş və terras örtükləri

D) Eni davamlı olaraq 5 metrdən çox olmayan və divar səthindən 1,5 metrə qədər irəli çıxan balkonlar

E) Hündürlüyü 3 metrdən və divar səthinin sahəsi 25 kvadrat metrdən çox olan binalar

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

16. Qüvvədə olan qanunvericiliyə əsasən aşağıdakılardan hansı tikililərin xarici divarlarının önündə ara məsafəsi sahələrinin saxlanılması zəruri deyildir?

A) Sənaye binalarının

B) Sahibkarlıq subyektlərinin

C) Divarlarının hündürlüyü 1 metrdən çox olmayan tikililərin

D) Fərdi yaşayış evlərinin

E) Bütün tikililətin xarici divarlarının önündə ara məsafəsi nəzərə alınmalıdır

Testin çətinlik dərəcəsi: asan

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

17. Tikililərin önündə ara məsafələrinin saxlanılması ilə bağlı aşağıda verilənlərdən hansı yanlışdır?

A) Divarlarının hündürlüyü 3 metrdən, sahəsi 25 kvadrat metrdən çox olmayan və yalnız qarajlardan və ya yanaşı otaqlardan ibarət olan binaların önündə ara məsafəsi sahəsinin saxlanılması zəruri deyildir

B) Tikilib abadlaşdırılmış və bərpa olunan ərazilərdə ara məsafəsinin şəhərsalma və tikintiyə dair normativ
sənədlərin tələbləri nəzərə alınmaqla, azaldılmasına yol verilir

C) Torpaqlardan səmərəli istifadə məqsədi ilə tikinti obyektinin layihələndirilməsi zamanı layihəçilərin təklifi nəzərə alınmaqla, qarşılıqlı razılaşdırılma əsasında yanaşı sərhəddə obyektlərin tikintisi iki paralel və qapalı boşluqları
olmayan divar və ya ortaq divar vasitəsilə həyata keçirilir

D) Hər hansı bir bina ilə bağlı müəyyən edilmiş ara məsafələri sonradan həyata keçirilən sərhəd dəyişmələri və ya torpaq sahələrinin bölünməsi zamanı azaldıla bilər

E) Bina və ya qurğunun ara məsafələri kimi müəyyən edilən torpaq sahəsi bütün hallarda nəqliyyat yolunun üstündə olmalı və ya nəqliyyat yoluna (nəqliyyat keçidinə) çıxışa malik olmalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir

18. Tarix, mədəniyyət və memarlıq abidələrində aparılacaq dəyişikliklər aşağıda göstərilən qurumlardan hansının razılığı ilə həyata keçirilə bilər?

A) Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin

B) Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin

C) Bələdiyyə orqanının

D) Yerli icra hakimiyyətinin

E) Azərbaycan Respublikasının Nazirlər Kabinetinin

Testin çətinlik dərəcəsi: asan

İstinad: Təsdiq olunmuş şəhərsalma sənədləri üzrə yeni obyektlərin yerləşdirilməsi, bina və qurğularda yenidən planlaşdırma aparılması, mövcud şəhərsalma obyektlərində dəyişikliklər edilməsinin tərtibatçılarla və sənədləri təsdiq edən müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılması Qaydaları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 4 sentyabr tarixli, 160 nömrəli qərarı ilə təsdiq edilmişdir

19. Mövcud obyektlərdə genişləndirmə, yenidən planlaşdırma, yenidənqurma işlərinin aparılmasına hansı hallarda yol verilir?

A) Mühəndis qurğularının yerləşdirilməsi və kommunikasiyasının çəkilməsi üçün nəzərdə tutulmuş texniki mərtəbələrin başqa məqsədlər üçün istifadəsinə

B) Bina və qurğularda evakuasiya yolları olan sahələr bağlandıqda

C) Konsol tipli balkonlar əlavə yükləməklə genişləndirildikdə

D) Zirzəmi divarları tağvari daş konstruksiyadan olan qədim binaların konstruksiyası dəyişdirilmədikdə

E) Mənzillərin genişləndirilməsi məqsədi ilə konstruktiv yükdaşıyıcı divar və ya arakəsmə, panellər söküldükdə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Təsdiq olunmuş şəhərsalma sənədləri üzrə yeni obyektlərin yerləşdirilməsi, bina və qurğularda yenidən planlaşdırma aparılması, mövcud şəhərsalma obyektlərində dəyişikliklər edilməsinin tərtibatçılarla və sənədləri təsdiq edən müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılması Qaydaları,

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 4 sentyabr tarixli, 160 nömrəli qərarı ilə təsdiq edilmişdir

20. 1. Torpaq çıxarılaraq zirzəminin döşəməsinin mövcud səviyyəsindən aşağı salınması; 2. Zrzəmi nəzərdə tutulmamış binalarda zirzəmi yaradılması; 3. Zirzəmidə tezalışan və kəskin iyli maddələr anbarı yerləşdirilməsi; 4. Zirzəmilərin müxtəlif məişət avadanlıqlarının saxlanması məqsəilə istifadəsi; 5. Konstruktiv yükdaşıyıcı divarlara zərər vermədən dəyişikliklər edərək sahibkarlıq fəaliyyəti üçün yenidənqurulması. Yuxarıda qeyd olunan hansı hallarda zirzəmilərdə dəyişikliklərin aparılmasına yol verilmir?

A) 1, 2, 3

B) 3, 4, 5

C) 1, 3, 5

D) 2, 3, 4

E) 1, 2, 4

Testin çətinlik dərəcəsi: orta

İstinad: Təsdiq olunmuş şəhərsalma sənədləri üzrə yeni obyektlərin yerləşdirilməsi, bina və qurğularda yenidən planlaşdırma aparılması, mövcud şəhərsalma obyektlərində dəyişikliklər edilməsinin tərtibatçılarla və sənədləri təsdiq edən müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılması Qaydaları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 4 sentyabr tarixli, 160 nömrəli qərarı ilə təsdiq edilmişdir

21. Aşağıdakılardan hansı Layihənin baş mühəndisinin (baş memarının) əsas fəaliyyət istiqamətlərindən biri hesab edilmir?

A) Layihələndirilən obyektlərin
yüksək texniki-iqtisadi səviyyəsinin və layihə-smeta sənədlərinin keyfiyyətinin təmin edilməsi

B) Layihənin icrası çərçivəsində əmək məhsuldarlığının yüksəldilməsi

C) Obyektlərin tikintisi və istismarı dövründə material ehtiyatların sərfinin azaldılması

D) Layihələndirilən obyektin perspektiv bazar dəyərinin yüksəlməsinə yönəlik tədbirlərin planlaşdırılması

E) Binaların konstruksiyalarının etibarlılığının və yanğına qarşı təhlükəsizliyin təmin edilməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları (AzDTN 1.5-4), Layihənin bas mühəndisi (bas memarı) haqqında Əsasnamə, Azərbaycan Respublikası Dövlət Səhərsalma və Arxitektura Komitəsinin 13.01.09 tarixli 02 №-li əmri ilə təsdiq edilib və 01.02.2009-cu il tarixdən qüvvəyə minib

22. Layihələndirilən obyektlərin səhərsalma və memarlıq-planlasdırma həllərinin keyfiyyətinin yaxşılaşdırılması aşağıdakılardan hansının əsas fəaliyyət istiqamətlərindən hesab edilir?

A) Podratçı təşkilatın rəhbərinin

B) Layihənin baş memarının

C) Layihənin sifarişçisinin

D) Nəzarət orqanlarının

E) Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları (AzDTN 1.5-4), Layihənin bas mühəndisi (bas memarı) haqqında Əsasnamə, Azərbaycan Respublikası Dövlət Səhərsalma və Arxitektura Komitəsinin 13.01.09 tarixli 02 №-li əmri ilə təsdiq edilib və 01.02.2009-cu il tarixdən qüvvəyə minib

23. Aşağıdakılardan hansı əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq Layihənin baş mühəndisinə (baş memarına) həvalə edilən vəzifələrdən biri deyil?

A) Tikinti üçün meydançanın (trassanın) seçilməsi üzrə komissiyanın işində iştirak etmək

B) Fəaliyyətdə olan müəssisə, bina və qurğularını yenidən qurulması və texniki yeniləşdirilməsi üzrə layihə-smeta sənədlərinin tərtibatı üçün layihə tapşırığının hazırlanmasında iştirak etmək

C) Layihə-smeta sənədlərini
hazırlayaraq təsdiq etmək

D) Tərtibatı və hazırlanması uzun müddət tələb edən avadanlıqlar yerləşdiriləcək obyektlər üçün elmi-tədqiqat, konstruktor və layihə işlərinin yerinə yetirilməsinin kompleks təqvim-planlarının hazırlanmasında iştirak etmək

E) Layihə-axtarıs işlərinin yerinə yetirilməsinə sifarişçi ilə müqavilənin bağlanması üçün ilkin məlumatları hazırlamaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları (AzDTN 1.5-4), Layihənin bas mühəndisi (bas memarı) haqqında Əsasnamə, Azərbaycan Respublikası Dövlət Səhərsalma və Arxitektura Komitəsinin 13.01.09 tarixli 02 №-li əmri ilə təsdiq edilib və 01.02.2009-cu il tarixdən qüvvəyə minib

24. 1. Qəbul edilən layihə həllərinin texniki və səmərəlilik səviyyəsinə və layihə-smeta sənədlərinin tərtibatı müddətlərinə nəzarət etmək; 2. Layihə-smeta sənədlərinin hazırlanması prosesində subpodrat təşkilatlarda ortaya çıxan bütün məsələləri vaxtında həll etmək; 3. Layiləndirmədə genis tətbiqi məqsədi ilə birtipli və təkrarən istifadə edilən səmərəli fərdi layihələrin, konstruktiv və texnoloji həllərin

hazırlanması; 4. Əsaslandırılmış halda, qüvvədə olan norma, qayda və təlimatlardan kənara çıxmalarla yerinə yetirilmiş layihə sənədlərinin həmin
kənara çıxmalarla bağlı hissələrini təsdiq etmək; 5. Layihələrin layihələndirmə tapşırığına və işçi sənədlərin təsdiq olunmuş layihəyə uyğunluğunu təmin etmək.  Yuxarıda göstərilənlərdən hansıları layihələndirilən obyektlərin layihənin baş mühəndisinə (baş memarına) həvalə edilmiş vəzifələrdəndir?

A) 1, 2, 5

B) 2, 3, 4

C) 1, 3, 4

D) 2, 4, 5

E) 3, 4, 5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları (AzDTN 1.5-4), Layihənin bas mühəndisi (bas memarı) haqqında Əsasnamə, Azərbaycan Respublikası Dövlət Səhərsalma və Arxitektura Komitəsinin 13.01.09 tarixli 02 №-li əmri ilə təsdiq edilib və 01.02.2009-cu il tarixdən qüvvəyə minib

25. Layihələndirilən obyektlərin tikintisinə müəllif nəzarətini kim həyata keçirir?

A) Podratçı təşkilatın mühəndisləri

B) Layihənin sifarişçisi

C) Layihənin baş mühəndisi (baş memarı)

D) Müstəqil ekspertlər

E) Heç biri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları (AzDTN 1.5-4), Layihənin bas mühəndisi (bas memarı) haqqında Əsasnamə, Azərbaycan Respublikası Dövlət Səhərsalma və Arxitektura Komitəsinin 13.01.09 tarixli 02 №-li əmri ilə təsdiq edilib və 01.02.2009-cu il tarixdən qüvvəyə minib

26. Aşağıdakılardan hansı layihənin baş mühəndisinin (baş memarının) hüquqlarına aid edilmir?

A) Layihə həllərindən kənara çıxmalarla, texniki şərtlər pozulmaqla və keyfiyyətsiz yerinə yetirilən ayrı-ayrı tikinti-quraşdırma işlərinin aparılmasını dayandırmaq

B) Podratçı tikinti-quraşdırma təşkilatı ilə razılaşdırmaqla işçi sənədlərin qısaldılmış həcmini təyin etmək

C) Layihə-smeta sənədlərinin tərtibatı prosesində layihə həllərinin keyfiyyətini yoxlamaq

D) Obyektlərin layihələndirilməsi, tikintisi və istismarı üzrə mövcud normativ sənədlərin korrektə edilməsi və yeni normativ sənədlərin işlənilməsi barədə göstərişlər vermək

E) Layihənin tərtibatında fərqlənmiş işçilərin mükafatlandırılması barədə layihə təşkilatının rəhbərliyinə təkliflər təqdim etmək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları (AzDTN 1.5-4), Layihənin bas mühəndisi (bas memarı) haqqında Əsasnamə, Azərbaycan Respublikası Dövlət Səhərsalma və Arxitektura Komitəsinin 13.01.09 tarixli 02 №-li əmri ilə təsdiq edilib və 01.02.2009-cu il tarixdən qüvvəyə minib

27. Hansı bənddə göstərilənlər layihənin baş mühəndisinin (baş memarının) əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq məsuliyyət daşıdığı məsələlərdən biri hesab edilmir?

A) Tikilən obyektlərin texniki-iqtisadi səviyyəsinə

B) Tikinti sahəsinin seçilməsinə

C) Tikilən obyektlərin memarlıq həllərinə

D) Layihə-smeta sənədlərinin keyfiyyətinə

E) Smeta dəyərinin düzgün təyin edilməsinə və tikintinin mərhələliyinə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları (AzDTN 1.5-4), Layihənin bas mühəndisi (bas memarı) haqqında Əsasnamə, Azərbaycan Respublikası Dövlət Səhərsalma və Arxitektura Komitəsinin 13.01.09 tarixli 02 №-li əmri ilə təsdiq edilib və 01.02.2009-cu il tarixdən qüvvəyə minib

28. Bina və ya bina içərisindəki yerləşgələrin daxili məkan strukturu necə adlanır?

A) Fasad

B) Xarici memarlıq mühiti

C) İnteryer

D) Eksteryer

E) Daxili divar

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

29. Aşağıdakılardan hansı ictimai bina interyerlərində həll olunan vacib məsələlərdən biridir?

A) Mebelin yerləşdirilməsi

B) Tavan, döşəmə və divarların rəng-faktura həlli

C) Dekor elementlərinin vurğulanması

D) Mobil mebel nümunələrindən istifadə

E) Obyektin yüksək bədii obrazının tapılması

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

30. Sənaye binası interyerinin tərtibatı özünəməxsus xüsusiyyətlətə malikdir. Göstərilənlərdən hansı bu tərtibatın müəyyənləşdirilməsində əsas yeri tutur?

A) İstehsalın xatakteri

B) İşçilərin sayı

C) Obyektin yerləşdiyi ərazi

D) Ətraf mühit

E) Heç biri

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

31. 1. Məkanın struktur-tərtibat planının hazırlanması; 2. İstehsal istiqamətinin müəyyənləşdirilməsi; 3. İnteryerin bütövlükdə və ayrı-ayrı detallarının üslub xüsusiyyətlərinin müəyyən olunması; 4. Nəqliyyat infrastrukturunun hazırlanması; 5. Mebel və avadanlıqların seçimi və yerləşdirilməsi. Yuxarıda göstərilənlərdən hansıları interyer dizaynına başlamazdan əvvəl dizayner tərəfindən həll edilməsi tələb olunan məsələlərdəndir?

A) 1, 2, 3

B) 3, 4, 5

C) 1, 4, 5

D) 2, 3, 4

E) 1, 3, 5

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

32. Verilənlərdən hansı interyer dizaynına başlamazdan əvvəl dizayner tərəfindən həll edilən məsələlərdən deyil?

A) Üzlük materialların seçimi və yerləşdirilməsi

B) İstehsal prosesinin təşkili

C) Təbii və süni işıqlandırma elementlərinin tərtibat həlli

D) İsitmə və kondisioner sisteminin təşkili

E) Pərdə və örtüklər üçün parça seçimi

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

33. İnteryerin layihələndirilməsi ilə bağlı verilən fikirlərdən hansı doğru deyildir?

A) Gələcək interyer layihləndirmə mərhələsində formalaşmağa başlayır

B) Funksional yerləşgələrin sahəsi və vəziyyəti layihələndirmə mərhələsində müəyyənləşir

C) Sahənin qabaritindən asılı olaraq otaqların düzgün yerləşməsi və ardıcıllığı planlaşmada müəyyənləşdirilir

D) İnteryer üçün inşaat və üzlük materialları seçilərkən onun iqtisadi nöqtəyi-nəzərdən sərfəli olması faktoru elə də böyük əhəmiyyət kəsb etmir

E) İnteryerin iç məkan harmoniyası rənglərin ideal uyğunluğu ilə detal və aksesuarların məqsədəuyğun yerləşdirilməsi ilə əldə olunur

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

34. Göstərilənlərdən hansı mənzilin funksional zonalarından biri ola bilməz?

A) Giriş

B) Qida qəbulu zonası

C) İstehsal sahəsi

D) Sanitar-gigiyenik qovşaq

E) İstirahət zonası

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

35. Hansı bənddə mənzildə mikroiqlimin düşgün təşkilinin vacib şərtlərindən olan küləklənmənin formalaşma üsullarından biri göstərilmişdir?

A) İkitərəfli

B) Təbii

C) Süni

D) Üçtərəfli

E) Heç biri

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

36. İdeya və məzmunun vəhdətini təmin edən bədii ifadə vasitələri və yaradıcılıq üsulları birliyi necə adlanır?

A) Üslub

B) Dizayn

C) Memarlıq

D) İnşaat

E) Tarixi memarlıq

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

37. İnteryer dizaynında üslubla bağlı verilmiş fikirlərdən hansı doğru deyildir?

A) Kompozisiya formalaşdırmağın iki vacib keyfiyyətindən biridir

B) Evin və ya mənzilin gələcək görkəmini təyin etməmişdən əvvəl onun hansı üslubda olmasını müəyyən etmək vacibdir

C) Üslub birliyi kompozisiyanın adı və "plastik" vasitələri ilə yaradılır

D) Üslub - həyat tərzinin, mənəvi, daxili aləmin vacib göstəricilərindəndir

E) Üslub birliyi memarın zamanın, dövrün nəbzini lazımınca tutmasından, iqtisadi münasibətlərdən, hazır münasibətlər sistemini məharətlə əks etdirməsindən asılıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

38. Aşağıdakılardan hansı memarlıqda üslubun dəyişməsinə təsir edən faktorlardan biri hesab edilmir?

A) Cəmiyyətin sosial inkişafı

B) Orta ömür uzunluğunun artması

C) Yerli şərait

D) İnşaat materiallarının səviyyəsi

E) Texnikanın inkişaf səviyyəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

39. Göstərilənlərdən hansı müasir interyer tendensiyalarına aid edilir?

A) İnteryer-eksperiment ("gadjet")

B) Antik və Roma memarlıq üslubu

C) Roman üslubu

D) Ampir üslubu

E) Heç biri

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

40. Roman üslubunda əsas şərt nədən ibarətdir?

A) Parça çeşidlərinin bolluğu

B) Binaların xarici görünüşünün sakit və təntənəli olması

C) Müasir və qədim əşyaların harmonikliyi

D) Taxta işləməli üzlüklər

E) Zəngin dekor

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

41. Göstərilənlərdən hansı Roman üslubuna aid edilmir?

A) Ağır, ensiz pəncərə açırımları

B) Pilləvari dərinləşən portalla nəzərə çarpdırılan massiv divarlar

C) Qüllələr

D) Sadə stereometrik həcmlər

E) Çatma günbəzlər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

42. Verilmiş fikirlərdən hansı Gotika memarlıq üslubuna aid edilə bilməz?

A) Material və rənglərin bir-birinə uyğunluğuna diqqət edilir

B) Evin bütün tərtibatının vahid üslub birliyində olması vacib məqamlardan hesab edilir

C) Müasir və qədim əşyaların harmonikliyinə diqqət yetirilir

D) İngiltərədə meydana çıxmışdır

E) Mürəkkəb psixoloji gərginlik təcəssümü olan bir üslub kimi özünə yer tutmuşdur

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

43. Hansı bənddə verilən Gotika üslubunun xarakteristik cəhətlərindən biri deyildir?

A) Dairəvi arkalı böyük məkanlar

B) Yüksəklərə millənən memarlıq formalarının üstünlük təşkil etməsi

C) Daş üzərində naxışlar

D) Döşəmədən tavana qədər olan pəncərə

E) Kiçik eyvanlar

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

44. 1. Öz dövrünün münasibətlər sistemini xarakterizə etmişdir; 2. İlk dəfə incəsənər tarixində iki anlayışı - üslub və həyat tərzini anlayışlarını qoşalaşdırmağa cəhd göstərmişdir; 3. Üslubun ilham mənbəyi kimi həyat tərzinə xas bəzi məqamlar və faciəvi konfliktlərin birgə mövcudluğu götürülmüşdür; 4. İnteryer dizaynında əzəmətli, zəngin forma və dekora böyük diqqət yetirmişdir. Yuxarıda qeyd olunanlar hansı memarlıq üslubunu xarakterizə edir?

A) Antik üslub

B) Roman üslubu

C) Gotika üslubu

D) Barokko üslubu

E) Klassik üslub

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait.   Bakı, 2007

45. Aşaığıdakılardan hansı Klassizm memarlığının digər memarlıq üslublarından fərqlənən cəhəti kimi göstərilə bilməz?

A) Planların dəqiqliyi

B) Simmetrik ox kompozisiyaları və formaların ciddiliyi

C) Qabarıq monumental formaları

D) Dekorativ bəzəyin sadəliyi

E) Keyfiyyətli və bahalı materialları

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait.   Bakı, 2007

46. Heykəl nümunələri və "lepka" bəzək elementləri ilə digər memarlıq üslublarından fərqlənən üslub hansıdır?

A) Ampir

B) Klassik

C) İngilis

D) Skandinaviya

E) Gotik

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait.   Bakı, 2007

47. 1. XXI əsrin sonu, XX əsrin əvvəllərində memarlıqma mövcud olmuş bir istiqamət sayılır; 2. Manera formaları ilə, nəzərə çarpdırılan assimetriya və sitilizatorluqla xarakterizə olunur; 3. Stilizə edilmiş bitki naxışları, qabarıq, ərixətli formaları, şəbəkə və döymə-dəmir elementləri bu üslubun xüsusiyyətlərindən hesab edilir; 4. Kompozisiya sexmlərindən aza üslubdur. Yuxarıda hansı memarlıq üslubunun xarakteristik xüsusiyyətləri sadalanmışdır?

A) Skandinaviya-İsveç üslubunun

B) Eklektika üslubunun

C) Modern üslubun

D) Hind üslubunun

E) Qədim Yunan üslubunun

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait.   Bakı, 2007

48. Kökləri ənənəvi yapon evi ilə bağlı olan, dəqiq həndəsi formalara malik mebel və aksesuarlar, minimum parça elementləri və əsasən parlaq dekor elementləri ilə xarakterizə edilən üslub necə adlanır?

A) Minimalizm

B) Eksklyuziv interyer

C) Neoklassika

D) Gotik

E) Hippi

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait.   Bakı, 2007

49. Hansı bənddə interyerin "Gadjet" üslubunda həllinin mənfi cəhəti qeyd edilmişdir?

A) Tamaşaçını təəccübləndirən üslub həllidir

B) Nəsildən-nəsilə ötürülən mebel nümunələri üstünlük təşkil edir

C) İzləyənləri həvəsləndirmək məqsədi daşıyır

D) Köçəri həyat sürən insanların həyat tərzini əks etdirir

E) İnsanı tez bezdirən, rahatlığı olmayan üslub həllidir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

50. Şəhər sakininin "təbiətə yaxın", onunla təmasda olması əsas tələb kimi hansı üslubda interyer həlli üçün qoyulur?

A) Etnik üslub

B) Ekoloji interyer

C) Art-deko

D) Animastik üslub

E) Saray interyerəri

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

51. Hansı rəngli predmetlər yaxınlaşmış təsir bağışlayır?

A) Soyuq rəngli

B) Qara rəngli

C) İsti rəngli

D) Boz rəngli

E) Rəng seçiminin predmetlərə münasibətdə bu cür təsiri yoxdur

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

52. İnsanlarda dinclik, sakitlik təsiri göstərməsi məqsədilə interyer həllərindən hansı rənglərdən istifadə edilir?

A) Yaşıl

B) Qırmızı

C) Boz

D) Sarı

E) Çəhrayı

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

53. Otağın geniş və eleqant görünüşünü təmin etmək üçün hansı rənglərdən istifadə edilməlidir?

A) İsti rənglərdən

B) Pastel rənglərdən

C) Solğun rənglərdən

D) Soyuq rənglərdən

E) Tünd rənglərdən

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

54. 1. Od və təhlükə mənbəyi rəngidir; 2. Spektrdə ən güclü rəng sayılır; 3. İnteryərə dramatik notlar gətirməyə qadirdir; 4. Bu rəngli divarda qızılı aksessuarlar daha cəzbedici görsənir; 5. Bu rəngin çoxluğu insanı qızıqlandırıb yora bilər, az həcmli aksentlər isə interyərə yaxşı əhval-ruhiyyə gətirə bilər. Bəhs edilən özəlliklər hansı rəngə aiddir?

A) Mavi

B) Narıncı

C) Yaşıl

D) Qırmızı

E) Qara

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

55. 1. Dekorator palitrasında ən məşhur rənglərdən biridir; Günəş və yay fəsli ilə assosiasiya olunur; 3. İstifadəsi baxımından çətin rəng hesab edilir; 4. Opyimistik əhval-ruhiyyə oyandırır; 5. İncə tonları özünəməxsus istiliyi ilə seçilir və təbii materiallarla da çox yaxşı uyğunlaşır. Bəhs edilən özəlliklər hansı rəngə aiddir?

A) Qırmızı

B) Boz

C) Sarı

D) Ağ

E) Torpaq

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

56. Aşağıdakılardan hansı yaşıl rəng üçün deyilə bilməz?

A) Köhnə memarlıq detalları olan interyerlər üçün ideal hesab olunur

B) Təbiət rəmzi sayılır

C) İstirahət rəngidir

D) Çərçivə və zolaq motivi ilə rahat atmosfer formalaşdırır

E) Açıq tonu zəngin çalarları ilə kantri üslubda ifa olunan interyerlərdə aktual sayılır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

57. Verilənlərdən hansı ictimai yaşayış interyerlərində dominant rəng kimi yararlı hesab olunmur?

A) Ağ

B) Qara

C) Sarı

D) Çəhrayı

E) Mavi

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

58. Aşağıdakılardan hansı interyer çərçivəsində dekorlandırma üçün müraciət edilən üslub motivlərindən biri deyil?

A) Kantri üslubu

B) Çərçivə motivi

C) Zolaq motivi

D) Eklektika üslubu

E) Ənənəvi etnik motiv

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

59. İnteryerdə pərdə seçimi ilə bağlı verilmiş fikirlərdən hansı doğru hesab edilmir?

A) Pərdə dizaynı invidual yanaşma tələb edir

B) Pərdə seçərkən otağın üslubu nəzərə alınmalıdır

C) Pərdə seçimi interyeri təşkil edən hər bir elementin ümumi rəng həlli nəzərə alınmaqla həyata keçirilməlidir

D) Tül qabarıq rəsmlidirsa üst pərdənin rəsmli olması vacib hesab edilmir

E) Pərdə divarların rəngi ilə eyni rəng çalarlarında olmalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

60. Dizaynerin ilkin fikirləri və əldə olunan son real nəticələrin müəyyən bir üslub çərçivəsində məqsədəuyğun birləşməsi aşağıda verilənlərdən hansını izah edir?

A) İnteryerin uğurlu dekorativ həlli

B) Üslubun seçilməsi

C) Təmir işlərinin uğurla tamamlanması

D) İnteryer üçün verilmiş layhənin uğurlu icrası

E) Layihə işlərinin təsdiqlənməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

61. Aşağıdakıalrdan hansı interyerin bütövlükdə obrazının dəyişdirilməsində istifadə olunan vasitələrdən biri deyil?

A) Boyalar

B) Müxtəlif aksesuarlar

C) Divar kağızları

D) Keramik piltə

E) Parçalar

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

62. Divar kağızları ilə bağlı verilmiş fikirlərdən hansı doğru deyildir?

A) Dekorlandırmada istifadə olunan əsas materiallardandır

B) İstənilən rəng çaları, faktura və tekstura, relyefli, həcmli, müxtəlif tərkibli, ekoloji təmiz və s. növləri mövcuddur

C) İndividual fon formalaşdırmaqda hər cür qeyri-adi istəyin reallaşdırılmasında dinamik bir material sayılır

D) Vətəni Fransa sayılır

E) Assortimentin dairəsinin zənginliyi baxımından interyerin dekorlandırılmasında boya ilə müqayisədə üstünlüyü daha çoxdur

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

63. İnteryerin döşəmə həlli aşağıdakılardan hansından asılıdır?

A) Otağın ölçüsündən

B) Materialların iqtisadi göstəricilərindən

C) Otağın təyinatından

D) Döşəmə materiallarının çeşidindən

E) İnteryeri formalaşdıran digər elementlərlə uyğunluğundan

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

64. Yerləşgə məkanının optik genişlənməsi təsəvvürünü formalaşdırmaq üçün aşağıdakılardan hansından istifadə edilir?

A) Güzgülərdən

B) Pəncərə şüşələrindən

C) Divar kağızlarından

D) Fakturalı boyama üsullarından

E) Açıq rəngli avadanlıqlardan

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.Ə.Ağayeva. İnteryerin dizayn tərtibatı və Avadanlığın təşkili. Metodik vəsait. Bakı, 2007

65. Aşağıdakılardan hansı memarlığa yönəldilən əsas tələblərdən hesab edilmir?

A) Rahatlıq

B) Möhkəmlik

C) Qənaətlilik

D) Gözəllik

E) Gəlirlilik

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

66. Göstərilənlərdən hansı Antik Roma memarlığında mövcud olmuş memarlıq orderlərindən biri deyildir?

A) Toskan

B) Dorik

C) Kompozit

D) İonik

E) Korinf

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

67. Divarlarla bağlı hansı bənddə yanlış fikir qeyd olunmuşdur?

A) Tektonik quruluşuna və konstruktiv funksiyalarına görə vahid növdə olur

B) Memarlıq həcmini məhdudlaşdırır

C) Binanın daxilini iqlim təsirindən müdafiə edir

D) Binanın təyinatına uyğun olaraq onu hissələrə bölür

E) Binaların əksəriyyətində dam örtüklərini saxlayır

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

68. Daşıyıcı elementlərdən- sütun, dayaq, yaxud çərçivə konstruksiyalarından və aralıqların kərpic hörgüsü ilə doldurulmasından, şüşələnmə-dən, yaxud yüngülləşdirilmiş divarlardan ibarət divar sistemi necə adlanır?

A) Ağır divar

B) Karkas divar

C) Bütöv divar

D) Nazik divar

E) Dayaq-tir sistemi

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

69. Binalarda yalnız çəpər funksiyası daşıyan divarlar necə adlanır?

A) Nazik divar

B) Ağır divar

C) Çəpərvari divar

D) Karkas divar

E) Heç biri

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

70. Örtüklərlə bağlı verilənlərdən hansı yanlışdır?

A) Sütun, dayaq və divarlardan sonra binaların mühüm elementləridir

B) Yastı və taclı olmaqla iki əsas örtük növləri var

C) Yastı örtüklər tirli və tirsiz, həmçinin üfüqi və maili olur

D) Maili tavanlardan o hallarda istifadə olunur ki, tavan örtüyü eyni zamanda dam örtüyü olsun

E) Heç biri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

71. Tağın konstruksiyasında böyük əhəmiyyət kəsb edən, öz yerinə qoyularkən tağı tamamlayaraq onu daşıyıcı konstruksiyaya çevirən yuxarı daş necə adlanır?

A) Açar daş

B) Tağ daşı

C) Qıfıl daşı

D) Kəmərbənd

E) Tağlarda daşların xüsusi adı olmur

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

72. Kvadrat yerləşgələrin, yaxud tağlarla kvadrat sahələrə bölünmüş qalereyaların üstünü örtmək üçün adətən hansı tağtavanlardan istifadə olunur?

A) Çatma tağtavan

B) Çartağ (xaçvari) tağtavan

C) Yelkənvari tağtavan

D) Güzgü tağtavan

E) Hiperbolik paraboloid şəklində tağtavan

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

73. 1. Düzbucaqlı yerləşgələrin üstünü örtür; 2. Köndələn kəsikdə əyrixətli formata malikdir; 3. Uzununa kəsikdə düzbucaqlı formata malik olur; 4. Aşırımlı qüvvəsi uzununa divarlarla örtülür. Yuxarıda qeyd olunanlar hansı tağtavan növünü xarakterizə edir?

A) Silindrşəkilli tağtavan

B) Çatma tağtavan

C) Güzgü tağtavan

D) Çartağ (xaçvari) tağtavan

E) Heç biri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

74. Aşağıdakılardan hansı çatma tağtavanın xüsusiyyətlərindən deyildir?

A) Düzbucaqlı yerləşgənin üstünü örtür

B) İkiyarım silindrlərin kəsişməsindən ibarətdir

C) Köndələn və uzununa kəsiklər tağ formasına malikdir

D) Aşırım qüvvəsi bütün dörd divara ötürülür

E) Çəki və aşırım qüvvəsi diaqonal tillərə və onlardan da künc dayaqlarına ötürülür

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

75. Günbəzin aşırım qüvvəsi və çəkisinin ötürülməsi hansı bənddə düzgün göstərilmişdir?

A) Aşırımlı qüvvəsi uzununa divarlarla örtülür

B) Bütün divarlara ötürülür

C) Künc dayaqlarına ötürülür

D) Bərabər sürətdə bütün bünövrəyə bölünür

E) Künbəzlər aşırma qüvvəsiz hazırlanır

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

76. 100 m-dən ar-tıq aşırımların örtülməsi üçün hansı tağtavanlardan istifadə edilir?

A) Yelkənvari tağtavan

B) Çatma tağtavan

C) Hiperbolik paraboloid şəklində tağtavanlar

D) Nervürlü tağtavan

E) Bu ölçüdə aşırımlar tağtvanla örtülmür

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

77. Aşağıdakılardan hansının tətbiqi yığma elementlərdən yüngül və möhkəm konstruksiyaları tez ucaltmağa, 70 metrə qədər və bir qədər də artıq aşırımları tağtavanlara ötürməyə imkan verdi?

A) Dəmir- betonun

B) Təbii daşlardan divarların hörülməsinin

C) Orderlərin

D) Karnizlərin

E) Antablementlərin

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

78. Hansı bənddə göstərilən fikir nazik divarlı dəmir-beton tağtavanların böyük konstruktiv üstünlüyü kimi qeyd edilə bilər?

A) Çoxsaylı və iri qabaritli dayaqların üzərində bərkidilməsi

B) Aşırma qüvvəsiz olması

C) Minimum sayda dayaqlara dirəmək imkanının olması

D) Təzyiqi xarici dayaq tağlara ötürməsi

E) Şaquli oxun güclü ifadəsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

79. Binanın yardımçı funksiyalarını daşıyan sahələri necə adlanır?

A) Əsas baş otaqlar

B) Köməkçi yerləşgələr

C) Kommunikasiya yerləşgələri

D) Əsas yerləşgələr

E) Pilləkən qəfəsləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

80. Aşağıdakılardan hansı köməkçi yerləşgələrə aid edilmir?

A) Vestibüllər

B) Bufetlər

C) Mətbəx

D) Tamaşa zalları

E) Dəhliz

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

81. Göstərilənlərdən hansı kommunikasiya yerləşgələrinə nümunə ola bilər?

A) Sanitar qovşaqlar

B) Ön otaqlar

C) Pilləkənlər

D) Paltar saxlanılan yerlər

E) Dərs otaqları

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

82. Muzey, saray kimi binaların memarlıq planlaşdırılmasında adətən hansı kompozisiya sxemindən istifadə edilir?

A) Anfilada sxemli planlaşdırma

B) Salon sxemli planlaşdırma

C) Mərkəzi sxemli planlaşdırma

D) Koridor sxemli planlaşdırma

E) Seksiya sxemli planlaşdırma

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

83. Bütün funksional prosesləri bir otaqda gedən binaların memarlıq planlaşdırılmasında hansı kompozisiya sxemindən istifadə edilir?

A) Diferensial sxemli planlaşdırma

B) Koridor sxemli planlaşdırma

C) Salon sxemli planlaşdırma

D) Anfilada sxemli planlaşdırma

E) Bu cür binalar üçün xüsusi kompozisiya nəzərdə tutulmur

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

84. Aşağıda göstərilən binalardan hansılarının memarlıq planlaşdırılmasında mərkəzi sxemli planlaşdırmadan istifadə edilir? 1. Teatr; 2. Kino; 3. Konsert salonları; 4. Muzey; 5. Sərgi salonları; 6. Örtülü bazarlar; 7. Konfrans zalları.

A) 1, 2, 3, 4

B) 3, 4, 5, 6

C) 1, 2, 3, 7

D) 2, 4, 6, 7

E) 1, 3, 5, 7

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

85. Yaşayış binalarının tikintisində əsasən hansı kompozisiya sxemindən geniş istifadə olunur?

A) Seksiya sxemli planlaşdırma

B) Mərkəzi sxemli planlaşdırma

C) Koridor sxemli planlaşdırma

D) Mərtəbə sxemli planlaşdırma

E) Yaşayış binaları invidual sxemlərlə tikilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

86. Aşağıdakılardan hansı adətən diferensial sxemli planlaşdırma növündən istifadə edilərək planlaşdırılmış binalara nümunə kimi göstərilmir?

A) Xəstəxanalar

B) İstirahət evləri

C) Yaşayış binaları

D) Mədəniyyət sarayları

E) Sənaye binaları

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

87. Aşağıdakılardan hansı dərin yerləşdirilmiş kompozisiyalı komplekslərə nümunə təşkil edir?

A) Sərgi pavilyonları

B) Çoxmərtəbəli seksiyalı yaşayış evləri

C) Təhsil müəssisələri

D) Yataqxanalar

E) Sirk

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

88. Fasadın xarici görünüşünün mənalı görünməyi aşağıdakılardan hansılardan asılıdır?

A) Binanın interyer dizaynından

B) Binanın həcminin real quruluşundan və tektonikasından

C) Binanın fasadının rəng seçimindən

D) Binanın təyinatından

E) Layihənin memarının istedadından

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

89. Təsvirin hansı növü layihələndirmədə əsas hesab edilir?

A) Surət

B) Maket

C) Həcmi təsvir

D) Qrafik

E) Model

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

90. Memarlıq qrafıkası ilə bağlı verilmiş fikirlərdən hansı doğru deyildir?

A) Memarlıq qrafikası adı altında elə qrafik vasitələrin toplusu başa düşülür ki, onların köməyi ilə memarlıq obyekti təsvir edilir

B) Təsvir layihələn-dirilən obyektin ideyasını konkretləşdirməyin və həyata keçirməyin mühüm vasitəsidir

C) Memarlıq layihələşdirməsi prosesi (kompozisiya) mütləq layihələndirilən obyektin layihələnmənin bütün mərhələlərində qrafik təsbit edilməsi ilə müşayiət olunur

D) Memarlıq qrafikası həcm-məkan obyektlərinin müstəvi üzərində qrafik təsvir nəzəriyyəsi olan təsviri həndəsəyə əsaslanır

E) Memarlıq qrafikası yalnız mövcud olan memarlıq əsərlərinin təsviri üçün istifadə edilir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

91. Layihələndirilən obyektin təsvirlərinin müvafiq hesablamalar və izahatlarla məcmusu necə adlanır?

A) Çizgi

B) Memarlıq qrafikası

C) Layihə

D) Eskiz

E) Plan

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

92. Layihələndirmə ilə bağlı verilmiş fikirlərdən hansı yanlışdır?

A) Layihə tapşırığı layihələndirmənin ilk mərhələsidir

B) Layihələndirmənin ikinci mərhələsində texniki layihə hazırlanır

C) İşçi layihə layihələndirmənin ikinci mərhələsini təşkil edir

D) Layihələndirmənin hər mərhələsinə cizgilərin icrasının öz qrafik üsulları uyğun gəlir

E) İşçi layihə eskiz layihəsi də adlandırılır

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

93. Memarlıq tikilisinin proyeksiyalarının üfüqi səthinə layihələndirilən üfüqi kəsikləri və yuxarıdan görüntüsü necə adlanır?

A) Tikilinin planları

B) Eskiz layihələri

C) Kəsikləri

D) Layihələri

E) Həcm təsviri

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

94. Tikilinin proyeksiyaların şaquli frontal və şaquli profilli səthinə layihələndirilmiş şaquli kəsimləri nə adlanır?

A) Fasadı

B) Planları

C) İnteryer dizaynı

D) Kəsiklər

E) Heç biri

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

95. Tikilinin proyeksiyalarının şaquli səthinə layihələndirilən zahiri görünüş təsvirləri necə adlanır?

A) Tikilinin planı

B) Eskiz layihəsi

C) Fasad

D) Kəsikləri

E) Surəti

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

96. Bütün sahənin görüntüsünün layihələndirilən tikili ilə birlikdə yuxarıdan üfüqi proyeksiyası necə adlanır?

A) Fasad

B) Baş plan

C) Kəsik

D) Layihə

E) Heç biri

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

97. Cizgidə təsvir olunan obyektin xətti ölçülərinin onun naturadakı müvafiq ölçülərinə nisbəti necə adlanır?

A) Cizginin miqyası

B) Planı

C) Kəsikləri

D) Layihəsi

E) Qrafiki

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

98. Kiçik detalları xüsusi dəqiqliklə vermək üçün cizgilərin icrasında qrafik miqyasın hansı növündən istifadə olunur?

A) Modul miqyasından

B) Köndələn miqyasdan

C) İzafi miqyasdan

D) Xətti miqyasdan

E) İxtiyari miqyasdan

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

99. Tikinitinin baş planında aşağıdakılardan hansı göstərilmir?

A) Binanın verilən sahədə mövqeyi

B) Binanın yerləşdiyi sahənin planlaşdırılması

C) Binaya giriş yolları

D) Ərazinin yaşıllaşdırılması və abadlaşdırılması

E) Binadan istifadə edəcək insanların təxmini sayı

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

100. Vəziyyət planı ilə bağlı verilənlərdən hansı doğru deyildir?

A) Sxematik icra edilir

B) Miqyası adətən baş plandan xeyli kiçik olur

C) Ərazinin yaşıllaşdırılması və abadlaşdırılmasını göstər

D) Tikili layihələrinin memarlıq cizgilərinin tərkibinə daxil olur

E) Layihələndirilən tikilinin və onun sahəsinin şəhərdə və qəsəbədəki yerini müəyyənləşdirən magistrallar və digər elementlərlə əlaqəsini göstərir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

101. 1. Planlar kiçik miqyaslarda tərtib edilir; 2. Bütün abadlaşdırılacaq və yaşıllaşdırılacaq ərazini və ona giriş qollarını əhatə edir; 3. Sıravi tikinti ayrı-ayrı binalar kimi təsvir edilir; 4. Ərazinin relyefi göstərilir; 5. Məhəllələrin tikintisinin hərtərəfli planları tərtib edilir, binaların yerləşdirilməsi göstərilir. Yuxarıda göstərilənlərdən hansıları şəhər və qəsəbələrin planlaşma layihələri üçün deyilə bilər?

A) 1, 2, 3

B) 3, 4, 5

C) 1, 3, 5

D) 2, 3, 4

E) 1, 2, 4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

102. Verilən obyektin əsas funksional məzmunu, onun bütün otaqlarının yerləşdirilməsi, onların bir-biri ilə əlaqəsi, ölçüləri və forması onların paylaşdırılmasının təyinata müvafiq olaraq rahatlığı və məntiqə uyğunluğu göstərilənlərdən hansında öz əksini tapır?

A) Planda

B) Kəsiklərdə

C) Situasiya planında

D) Fasad cizgisində

E) Maketdə

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

103. Aşağıdakılardan hansı planda göstərilmir?

A) Tikilinin örtmə aşırımları

B) Xarici və daxili divarların qalınlığı

C) Məhəllə daxili yollar

D) Qapı və pəncərə açırım-larının yeri və ölçüləri

E) Pilləkənlər və pilləkən qəfəsləri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

104. 1. So hovuzu; 2. Mebeller; 3. İsitmə cihazları; 4. Yaşıl massivlər; 5. Məişət avadanlıqları. Yuxarıda göstərilənlərdən hansılarının yeri tikilinin planında öz əksini tapır?

A) 1, 4, 5

B) 2, 3, 5

C) 1, 2, 3

D) 2, 3, 4

E) 1, 2, 4

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

105. Plan cizgilərinin miqyasları ilə bağlı verilmiş fikirlərdən hansı doğru deyildir?

A) Plan cizgiləri müəyyən edilmiş miqyaslarda icra olunur

B) Miqyas seçimi icra edilən cizginin ölçülərindən asılıdır

C) Miqyas tikilinin ölçüləri əsasında müəyyənləşdirilir

D) Plan cizgilərinin miqyası verilmiş obyektin icra olunduğu proyeksiyaların digər növlərinin miqyasları ilə uzlaşır

E) 1:10000 miqyasından daha kiçik miqyasda plan cizgiləri tərtib olunmur

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

106. Çoxmərtəbəli binalar üçün göstərilənlərdən hansı plan hazırlanmır?

A) Mərtəbələrin planları

B) Pilləkənlərn planları

C) Dam planları

D) Zirzəmi planları

E) Örtmə planları

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

107. Tavanların proyeksiyalarının əks olunduğu planlar necə adlandırılır?

A) Plafon

B) Fasad

C) Kəsik

D) Baş plan

E) Maket

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

108. Cizgidə icra olunan memarlıq obyekti barədə əyani həcm-məkan təsəvvürü almaq üçün aşağıdakılardan hansından istifadə olunur?

A) Üfüqi proyeksiyasından

B) Xüsusi planlardan

C) Təsvirin perspektiv metodundan

D) Orderlərdən

E) Surətlərdən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

109. Planlarla bağlı aşağıda verilənlərdən hansı yanlışdır?

A) Məhdud sayda əsas ölçülər planlara əlavə olunur

B) Planlarda daxili vəziyyət təsvir olunur

C) Yaşayış otaqlarında mebelin yeri planlarda göstərilir

D) Tamaşa zallarının planlarında yerlərin düzülüşü əks olunur

E) Heç biri

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

110. 1. Otaqların kompozisiya cəhətdən qarşılıqlı əlaqəsi açılır; 2. Onların memarlıq xarakteri aşkar olunur; 3. Memarlıq detallarının, üfüqi qurşaqların, karnizlərin və s. profilləri təsvir olunur; 4. Mərtəbələrin bir-biri ilə əlaqəsi, otaqların üfüqi xətt üzrə düzülüşü barədə təsəvvür verir. Qeyd olunanlar aşağıdakılardan hansında göstərilir?

A) Baş planda

B) Kəsiklərdə

C) Maketdə

D) Situasiya planında

E) Həcmi təsvirlərdə

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

111. Kəsiklərlə bağlı hansı bənddə doğru olmayan fikir bildirilmişdir?

A) Kəsiklər başlıca və əlavə kəsiklərə bölünür

B) Başlıca kəsiklər tikilinin əsas otaqları boyunca keçir

C) Əlavə kəsiklər tikilinin başlıca kəsiyinin düşmədiyi his-sələrindən keçir

D) Kəsiklər icra olunarkən planda kəsik xəttinin yerini və istiqamətini oxlar və hərflərlə işarə edərək göstərmək zəruridir

E) Bütün kəsiklər bütün layihələrdə məqsədindən asılı olmayaraq eyni miqyasda icra olunur

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

112. Kəsiklər hansı layihələrdə bütün konstruktiv detalların müfəssəl təsviri, divarların, mərtəbəarası örtüklərin, çardaq və dam örtüklərinin bütün ölçüləri və sıfır xətləri işarə edilərək göstərilməklə icra olunur?

A) Eskiz layihələrində

B) Baş planda

C) Biznes layihədə

D) İşçi layihələrdə

E) Vəziyyət planında

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

113. Eskiz layihələrində kəsiklərin əhəmiyyəti nədən ibarətdir?

A) Əsas etibarilə daxili memarlığın kompozisiya cəhətlərinin aşkara çıxarılmasından

B) Tikilinin konstruksiya elementlərinin müfəssəl surətdə üzə çıxarılmasından

C) Konstruktiv detalların müfəssəl təsvirindən

D) Sahənin görüntüsünün layihələndirilən tikili ilə birlikdə yuxarıdan üfüqi proyeksiyasının əldə olunmasından

E) Obyektin şərti təsvirinin verilməsindən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

114. Simmetriya oxuna malik olan yerləşgələrin daxili memarlığının daha aydın göstərilməsi üçün hansı kəsiklər yerinə yetirilir?

A) Şaquli kəsiklər

B) Uzununa və köndələn kəsiklər

C) Üfüqi kəsiklər

D) Uzununa və üfüqi kəsiklər

E) Köməkçi kəsiklər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

115. Əgər kəsiklərdə yerləşgələrin daxili memarlığı kifayət qədər görünmürsə, cizgilərə müraciət olunur. Onlarda bu yerləşgəni məhdudlaşdıran bütün daxili divarların proyeksiyaları döşəmə ilə tavanın (plafonun) proyeksiyaları ilə birgə açılır. Bütün bu proyeksiyalar bir cizgidə göstərilir və eyni miqyasda və qrafikada icra olunur. Bu cizgilər necə adlanır?

A) Köndələn cizgilər

B) İşçi cizgilər

C) Perspektiv təsvirlər

D) Açılma cizgilər

E) Düzbucaqlı cizgi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

116. Fasadın cizgisində göstərilənlərdən hansı ilə bağlı təsəvvür formalaşmır?

A) Tikilinin zahiri görünüşü

B) Tikilinin kompozisiya quruluşu

C) Tikilinin daxili divarların proyeksiyaları

D) Tikilinin elementlərinin tənasüb və nisbətləri

E) Obyektin memarlıq xüsusiyyəti

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

117. Eskiz və texniki layihələrdə fasadların miqyası planın miqyasına nisbətdə necə götürülür?

A) Adətən 2 dəfə iri

B) Mütləq eyni

C) Ən az 2 dəfə kiçik

D) 1:10 nisbətində

E) İstənilən ölçüdə götürülə bilər

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

118. Fasadlarla bağlı verilmiş fikirlərdən hansı yanlışdır?

A) Təsvir olunan obyektin zahiri memarlığı barədə daha tam təsəvvür almaq üçün eskiz və texniki layihələrdə fasadların bütün cizgiləri dəqiqliklə işlənir

B) İşçi layihədə binanın bütün fasadları işlənir

C) Baş fasadın cizgisi qalan fasadların cizgilərindən daha iri miqyasda işlənir

D) İkinci dərəcəli fasadlar bir qədər ümumiləşdirilmiş olur

E) Memarlıq tikilisinin iki baş fasadı varsa və onlar bir-birini təkrar etmirsə, hər iki fasadın cizgiləri eyni miqyasda işlənilir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

119. Bu cizgilərin vəzifəsi interyerlərin elə detallarının relyef, profil, konstruksiya quruluşu, istifadə olunan materiallar, rəsm və plastikasının iri təsvirlərini göstərməkdir ki, onları kiçik olduqlarına görə ümumi cizgilərində aydın görmək olmur. Aşağıdakılardan hansını bu detallara nümunə kimi göstərmək mümkündür?

A) Qapı və pəncərələr

B) Karnizlər

C) Tağlar

D) Sütunlar

E) Örtük

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

120. Memarlıq obyektini gerçəklikdə görüldüyü kimi təsvir etmək imkanı verən proyeksiya növü hansıdır?

A) Perspektiv proyeksiya

B) Təsviri pyeksiya

C) Düzbucaqlı proyeksiya

D) Maket

E) İşçi cizgilər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

121. Perspektiv proyeksiyalı cizgilərlə bağlı verilənlərdən hansı doğru deyildir?

A) Həcmi formaların üç ölçülüyünü əyani surətdə təsvir etməyə imkan verir

B) Yaradıcı layihələndirmə prosesində mühüm rol oynayır

C) Memarlıq obyektinin daxili və xarici sahəsinin dərinliyini aşkara çıxarmaq olur

D) Layihələndirmənin əvvəlində obyektin düşünülmüş kompozisiyasının dəqiq ölçülərlə ifadə olunan perspektiv eskiz rəsmləri çəkilir

E) Perspektivin tətbiq olunmasının ikinci mərhələsi verilmiş obyektin simasının düzbucaqlı proyeksiyalarda son seçimi ilə əlaqədardır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

122. Memarlıq obyektinin perspektivdə təsviri özünün qrafik cəhətdən tərtib olunmuş son görünüşünü perspektivdən layihələndirmə prosesinində istifadə etməyin hansı mərhələsində alır?

A) İlk mərhələsində

B) İkinci mərhələsində

C) Sonuncu mərhələsində

D) Bütün mərhələlərdə

E) Heç birində

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

123. Aşağıdakılardan hansı perspektiv proyeksiyanın əsas növlərindən hesab edilir?

A) Dekorativ elementlər

B) Pəncərə və qapı haşiyələri

C) Müxtəlif avadanlıqlar

D) Bünövrə

E) İnteryer

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

124. İnteryerin perspektivdə təsviri zamanı qeyd olunanlardan hansına ehtiyac duyulmur?

A) İnteryerin təsvir olunan hissəsinin ən səciyyəvi kəsiyi boyunca planın olması

B) İnteryeri məhdudlaşdıran və görüş dairəsinə düşən divarların şaquli proyeksiyaları

C) Binanın fasadında olan zahiri konturlar, çıxıntılar və sütunların planı

D) Yerləşgənin daxili örtüyünün üzərində müvafiq konstruksiyalar və dekorativ bəzəklərin (əgər varsa) təsviri olan planı

E) Kəsik planında bütün görünən detalların relyefi, şərait və avadanlığın göstərilməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

125. Tikilinin zahiri görünüşünü perspektivdə təsvir edərkən aşağıdakılardan hansına ehtiyac duyulmur?

A) Döşəmənin istənilən rəsminə

B) Görüş dairəsinə daxil olan hər şeylə məhdudlaşdırılmış planına

C) Bina şaquli xətt üzrə inkişaf etmiş mürəkkəb həcmi formaya malikdirsə, əsas plana salınmış yaruslar üzrə əlavə planlara

D) Binanın görüş dairəsinə düşən tərəflərinin fasadlarına

E) Binanın planı ilə birgə cizgidəöz əksini tapmış binanın ətraf mühitdə təsvirinə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

126. Ansambl perspektivlərinin təsviri zamanı göstərilənlərdən hansı işlənilmir?

A) Binaların xarici konturları, küçələr, səkilər, meydanlar, yaşıllıqlar və s. işarə edilməklə ərazinin müvafiq hissələri planda öz əksini tapmalıdır

B) Pilləkənlərin və pilləkən qəfəslərinin planı

C) Fasad, küçə və meydanların aşırımaları

D) Görüş dairəsinə düşən ayrı-ayrı tikililərin fasadları

E) Relyefli ərazilər üçün planda ərazinin hündürlüyü işarə olunmalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

127. Memarlıq məqsədinin vizual qavrayışda tam və doğru qavranmasına imkan yaradan, layihələndirilən obyektin funksional əsasını və strukturunu əks etdirən statik, həcmi modeli necə adlanır?

A) Təsvir

B) Qrafik cizgisi

C) Memarlıq maketi

D) Model

E) Eskiz layihə

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

128. Memarlıq rəsmi ilə bağlı qeyd edilənlərdən hansı doğru hesab edilmir?

A) Obyektin ölçüləri tam dəqiqliyi ilə göstərilməlidir

B) Təsvir olunan obyektin formalarının quruluşunu dəqiq aşkara çıxarmalıdır

C) Obyektin memarlıq detallarının xarakterini aydın göstərməlidir

D) Memarlıq detallarının öz aralarında və bütün tikili ilə əlaqə və asılılığını dürüst verməlidir

E) Təsvir olunan obyektlərin bədii və konstruktiv quruluşunu başa düşməyə əsaslanmalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

129. Yaşayış evləri layihələndirərkən istifadə olunan köməkçi əmsallardan olan K1 hansı bənddə doğru izah edilmişdir?

A) Binanın kubaturasının onun yaşayış sahəsinə nisbəti

B) Könəkçi sahənin yaşayış sahəsinə nisbəti

C) Adam başına düşən gəzinti sahəsinin ölçüsü

D) Dayanacaq yerlərinin sayının mənzillərin sayına nisbəti

E) Yaşayış sahəsinin faydalı sahəyə nisbəti

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

130. Layihələndirilmiş binalarda iş, yaşayış və yardımçı sahələrin məcmusu necə adlanır?

A) İş sahəsi

B) Faydalı sahə

C) Köməkçi sahə

D) Tikintinin sahəsi

E) Ümumi sahə

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

131. Layihələndirilmiş binanın elementlərindən olan tikintinin sahəsi hansı bənddə düzgün izah edilmişdir?

A) İstehsalat, sərgi, yaxud ticarət yerləşgələrinin təmiz ölçülmüş, yəni divarlar və ya arakəsmələr arasndakı sahəsi

B) İş, yaşayış və yardımçı sahələrin məcmusu

C) Tikintiyə ayrılmış sahənin ümumi ölçüsü

D) Birinci mərtəbənin xarici perimetri hüdudlarında binanın sahəsi

E) Tikintinin bütün mərtəbələr üzrə məcmu sahəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

132. Aşağıdakılardan hansı binanın kubaturası hesablanarkən ona daxil edilmir?

A) Köməkçi sahələr

B) Qeyri-yaşayış sahəsi

C) Pilləkənlər, pilyastrlar, giriş meydançaları

D) Zirzəmi

E) Binanın kubaturası hesablanarkən yalnız yaıayış sahəsi nəzərə alınır

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

133. Layihə tapşırığında aşağıdakılardan hansı qeyd olunmur?

A) İnşaatın texniki imkanları və iqtisadi məqsədəuyğunluğu

B) İnşaatın ümumi dəyəri

C) İnşaat və memarlıq- planlaşma həlləri

D) İnşaatın xammalla, inşaat materialları, yanacaq, su, enerji ilə təminat mənbələri

E) Ərazinin perspektiv inkişaf planı

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

134. 1. Layihə tapşırığında qəbul olunmuş texniki, inşaat və memarlıq- planlaşma həlləri daha dərindən və müfəssəl işlənir; 2. İnşaatın həcmi dəqiq qeyd olunur; 3. İnşaatın iqtisadi göstəriciləri dəqiqləşdirilir. Qeyd olunanlar aşağıdakılardan hansı üçün səciyyəvidir?

A) Layihə tapşırığı

B) Layihənin baş planı

C) Texniki layihə

D) Ümumi plan

E) Eskiz layihə

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

135. İşçi cizgilər hansı mərhələdə işlənib hazırlanır?

A) Layihə təsdiq olunduqda

B) Layihə tapşırığı ilə birlikdə

C) Baş plan hazırlandıqda

D) İnşaat meydançası seçilməmişdən əvvəl

E) Layihə təsdiq edilmək üçün təqdim edildikdə

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

136. Aşağıdakılardan hansı işçi cizgilərə aid edilmir?

A) Fasad, plan və kəsiklər

B) Binaların hissələri və konstruksiyaları

C) Detal və şablonlar

D) Perspektiv proyeksiya

E) Quraşdırılmış avadanlıq

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

137. Layihələndirmə üçün verilən tapşırığın öyrənilməsi layihələnmənin hansı mərhələsi hesab edililr?

A) Hazırlıq

B) Proses

C) Başlanğıc

D) Yoxlama

E) Layihələndirmə prosesi bütün şəkildə ələ alınır, mərhələlərə ayrılmır

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

138. Aşağıdakılardan hansı layihələnmənin hazırlıq mərhələsində aydınlaşdırılan məsələlərdən biri deyil?

A) İnşaatın yeri

B) Sərf ediləcək materialların keyfiyyəti

C) Sahənin xarakteri və relyefi

D) Layihələndiriləcək binanın ətraf tikililər arasında rolu

E) Binanın ucaldılmasının konstruktiv imkanları

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

139. Baş plan və binanın bütün proyeksiyalarda: plan, kəsik, fasad, perspektiv rəsmdə ilk kompozisiya eskizi necə adlanır?

A) Eskiz layihə

B) Layihə tapşırığı

C) Kalauzura

D) Baş pılan

E) Maket

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

140. Fasad, kəsik və perspektiv üzərində iş zamanı tikili ilə yanaşı, cizgi miqyasında adam hansı məqsədlə təsvir edilir?

A) Cizgini daha baxımlı etmək üçüb

B) Estetik görünüşü təmin etmək məqsədilə

C) Əsas məqsəd cizgiləri monotonluqdan xilas etmək, canlılıq verməkdən ibarətdir

D) Binanı, onun element və detallarını düzgün hiss etmək üçün

E) Memarlıq cizgilərindən tikililərlə birlikdə əlavə heç bir təsvir verilmir

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

141. Göstərilənlərdən hansı mənzərəli (landşaftlı) parklar üçün səciyyəvi xüsusiyyətlərdən hesab edilmir?

A) Bu növ parkların xüsusiyyətləri təbiətin təbii gözəlliyinin açılması ideyası ilə bağlıdır

B) Parkların kompozisiyasında təbii relyefdən istifadə edilir

C) Ətraf əraziyə, yaşıllıq massivlərinə, çəmənliklərə, su məkanlarına sahillərinin təbii konturu ilə birgə mənzərələrin açılmasına diqqət yetirilir

D) Müxtəlif təbii amillərin təsiri altında meydana çıxmış kimi təbii təəssüratn formalaşmasına çalışılır

E) Çiçəkliklər, qazonlar, xiyabanlar hovuzlar və meydançalar düzgün həndəsi formaya malikdir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

142. Müntəzəm parkların xüsusiyyətləri əsasən aşağıdakılardan hansı ilə əlaqədardır?

A) Simmetriyanın əsas və tabeli oxları üzərində qurulan planlaşmanın həndəsi xarakteri ilə

B) Təbii relyefdən istifadə etmək və nəzərə çarpdırmaq xüsusiyyəti ilə

C) Planlaşmanın sərbəst xarakteri ilə

D) Texnoligiyanın inkişafının sərgilənməsi ideyası ilə

E) Heç biri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

143. 1. Parkların tərtibatında xüsusilə görkəmli rol oynayırlar; 2. Parklarla yanaşı şəhərlərin və digər yaşayış yerlərinin memarlığında bədii-dekorativ element rolunu oynayırlar; 3. Küçə, meydan, bağ, sahil və yollara yaraşıq verirlər; 4. Xarici məkanı təşkil edən elementlərdir. Qeyd edilən xüsusiyyətlət aşağıdakılardan hansını ifadə edir?

A) Tarixi memarlıq abidələri

B) Uzunömürlü ağaclar

C) Kiçik memarlıq formaları

D) Görkəmli şəxslərin büst və heykəlləri

E) Zövqlə dizayn edilmiş tarixi binalar

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

144. Hansı bənddə qeyd edilən fikir pavilyon-çardaqlı köşklər üçün səciyyəvi hesab edilmir?

A) İstirahət üçün istifadə olunur

B) Dekorativ tikililərdir

C) Ətrafı seyr etmək üçün açıq yerlərdə tikilir

D) Planda dairəvi, kvadrat, yaxud çoxbucaqlı olmalarına baxmayaraq, adətən ciddi mərkəzçi kompozisiyaya malikdirlər

E) Parka əsas girişi təşkil edirlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

145. Hansı tikililər parkın bir hissəsindən o biri hissəsinə, ya da parkın bir səviyyəsindən digərinə keçidi təşkil edir?

A) Pavilyonlar

B) Propileylər

C) Körpülər

D) Çardaqlı köşklər

E) Keçid məntəqələri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

146. Açıq pavilyonlarda ən geniş yayılmış konstruksiya hansı hesab edilir?

A) Daş konstruksiyası

B) Şüşə konstruksiya

C) Ağır metal konstruksiyası

D) Dirək-tir konstruksiyası

E) Heç biri

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

147. Göstərilənlərdən hansı perqala мə trelyajlara xas xüsusiyyətlərdən biri deyil?

A) Park tikililərindəndir

B) Yüngül olması ilə səciyyələnir

C) Özünəməxsus məhəccərləri ilə seçilir

D) Şəbəkəsi dəmir-beton, ağac, yaxud metaldan hazırlanır

E) Yaşıllığa bürünmüş tikililərdir

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

148. Dam örtüyünün meyli, rəngi və fakturası, eləcə də davamlılığı aşağıdakılardan hansı ilə müəyyən olunur?

A) Örtük materialının növü ilə

B) Çardaq konstruksiyası ilə

C) Binanın hündürlüyü ilə

D) Ərazinin relyefi ilə

E) Sifarişçinin tələbi ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

149. Göstərilənlərdən hansı yaşayış evlərinin layihələrində nəzərə alınmalı faktorlardan hesab edilmir?

A) Həyat tərzinə uyğunluğu

B) Şəhər mərkəzlərindən kənarda yerləşməsi

C) Müasir dövrün tələblərinə cavab verməsi

D) İnşaat rayonunun iqlim şəraitinə uyğun olması

E) Sakinlərin rahatlığına cavab verməsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

150. Aşağıdakılardan hansı mənzildə olan yerləşgələrdən deyildir?

A) Yaşayış otaqları

B) Mətbəx

C) Dəhliz

D) Divar şkafları

E) Əyləncə otaqları

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.H.Nağıyev, Ş.A.Abbasova, İ.K.Ağamalıyeva, L.İ.Məmmədxanova. Layihələndirmənin Əsasları. Bakı, 2004

151. İşçilərə ilkin təlimatı kim keçir?

A) Əməyin mühafizə şöbəsinin mühəndisi

B) Əməyin mühafizəsi şöbəsinin rəisi

C) Sahə və ya işin rəhbəri

D) Həmkarlar ittifaqı komitəsinin sədri

E) Müəssisənin direktoru

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

152. İşçilərə ilkin təlimat harda keçirilir?

A) Baş mühəndisin yanında

B) İşçinin göndərildiyi sahədə

C) Həmkarlar ittifaqı komitəsində

D) Əməyin mühafizəsi otağında

E) Əməyin mühafizəsi şöbəsinin rəisinin yanında

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

153. İş yerlərində əmək şəraiti dəyişərsə və ya hər hansı bir bədbəxt hadisə baş verərsə bu zaman işçilərə hansı təlimat keçirilməlidir?

A) Təkrar təlimat

B) İlkin təlimat

C) Növbədənkənar təlimat

D) Birdəfəlik təlimat

E) Giriş təlimat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

154. İş yerində təlimat öz növbəsində hansı təlimatlara bölünür?

A) İlkin, giriş və növbədənkənar

B) İlkin, vaxtaşırı, növbədənkənar və birdəfəlik

C) Giriş, vaxtaşırı, birdəfəlik və növbədənkənar

D) Giriş, vaxtaşırı və növbədənkənar

E) Giriş, ilkin, vaxtaşırı, birdəfəlik və növbədənkənar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

155. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində gündəlik normal iş vaxtının müddəti neçə saatdır?

A) 8 saatdan artıq olmamalıdır

B) 10 saatdan artıq olmamalıdır

C) 7 saatdan artıq olmamalıdır

D) 5 saatdan artıq olmamalıdır

E) 6 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

156. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində həftəlik normal iş vaxtının müddəti neçə saatdır?

A) 40 saatdan artıq olmamalıdır

B) 35 saatdan artıq olmamalıdır

C) 36 saatdan artıq olmamalıdır

D) 33 saatdan artıq olmamalıdır

E)  45 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

157. Təhlükəli və zərərli amillər hansı qruplara bölünür?

A) Kimyəvi, bioloji və psixofizioloji

B) Sosioloji, kimyəvi, bioloji və psixofizioloji

C) Bioloji və psixofizioloji

D) Fiziki və  kimyəvi və psixofizioloji

E) Fiziki, kimyəvi, bioloji və psixofizioloji

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I-cild. Bakı, 2010. Səh. 456

158. İş yerlərində attestasiyanın keçirilməsi neçə müddətdən bir aparılır?

A) İki ildə bir dəfədən az olmayaraq

B) Dörd ildə bir dəfədən az olmayaraq

C)  Üç ildə bir dəfədən az olmayaraq

D) Beş ildə birdəfədən az olmayaraq

E)  İldə bir dəfədən az olmayaraq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

159. Qadınlar üçün əllə daşınan yüklərin yüklənib boşaldılması və daşınması zamanı çəkisi maksimum nə qədər olmalıdır ?

A) 25 kq-dan artıq olmamalıdır

B) 15 kq-dan artıq olmamalıdır

C) 30 kq-dan artıq olmamalıdır

D) 50 kq-dan artıq olmamalıdır

E) 10 kq-dan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

160. Əl ilə yüklərin daşınması məsafəsi neçə metrdən artıq olduqda yüklərin daşınmasına icazə verilmir?

A) 80 metrdən artıq olduqda

B) 40 metrdən artıq olduqda

C) 60 metrdən artıq olduqda

D) 100 metrdən artıq olduqda

E) 120 metrdən artıq olduqd

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

161. Nə zaman yüklərin yüksəkliyə qaldırılmasına icazə verilir?

A) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

B) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

C) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

D) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

E) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 5 m-dən çox olmadıqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

162. İstehsalat binalarında otaqların tavanı döşəmədən minimum nə qədər məsafədə olmalıdır?

A) 2 metrdən az olmamalıdır

B) 3 metrdən az olmamalıdır

C) 4 metrdən az olmamalıdır

D) 1 metrdən az olmamalıdır

E) 2,5 metrdən az olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi. Məlumat kitabı. Bakı, 2003. Səh. 127

163. Elektrik cərəyanının təsirindən qoruyan mühafizə vasitəsini göstərin?

A) Dezaktivasiya vasitələri

B) Səsboğan

C) İzoləedici örtüklər və qurğular

D) Hermetikləşdirici qurğu

E) İşıq filtrləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

164. Yer səthindən 2 metrdən yüksəklikdə iş aparılan zaman əsasən nədən istifadə olunmalıdır?

A) Rezin əlcəkdən

B) Xüsusi çəkmələrdən

C) Qulaqcıqdan

D) Eynəkdən

E) Qoruyucu kəmərdən

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

165. Nəfəs yollarının mühafizəsi üçün hansı mühafizə vasitələrindən istifadə olunur?

A) Şlanqlı əleyhqazlardan

B) Süzgəcli əleyhqazlar və qulaqcıqlardan

C) Süzgəcli, oksigenli əleyhqazlar və dəbilqədən

D) Resperatorlar, əleyhqazlar və eynəkdən

E) Resperator və əleyhqazlardan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

166. Qapalı sınıqlar zamanı ilk tibbi yardım kimi nə etmək lazımdır?

A) Sadəcə həkimi gözləmək

B) Ağrıkəsici dərman vermək və tibb müəssisəsinə çatdırmaq

C) Şina qoyub tərpənməz vəziyyətdə saxlamaq, tibb müəssisəsinə çatdırmaq

D) Təmiz havaya çıxarmaqbintlə sarımaq

E) Deformasiya uğramış nahiyyəni düzləndirib bintlə sarımaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Tibb bacısının məlumat kitabı Bakı 2008

167. Bədbəxt hadisə nədir?

A) Texniki qurğuların dayanması, yaxud nasazlığı

B) İşçinin və ya işçilərin iş yerlərində alığı xəsarətdir

C) Texnoloji rejiminin pozulması

D) Nəzarət edilə bilməyən partlayış və yanğın

E) Təhlükəli maddələrin ətraf mühitə yayılması

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

168. İstehsalat təhlükəsi və ya zərərli amillərin təsirinin qarşısını alan və ya azaldan vasitələr necə adlanır?

A) Təhlükəsizlik vasitələri

B) Mühafizə vasitələri

C) Kollektiv vasitələri

D) Xilasetmə vasitələri

E) Xəbərvermə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

169. Yanan metalları nə ilə söndürmək olar?

A) Xüsusi təyinatlı tozlarla

B) Ümumi təyinatlı tozlarla

C) Köpüklə

D) Su ilə

E) Buxarla

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

170. Gərginlik altında olan avadanlıqlarda baş vermiş yanğını söndürərkən ilk növbədə nə etmək lazımdır?

A) Bölməni hermetikləşdirmək

B) Qəza bölməsini və avadanlıqları cərəyandan ayırmaq

C) Bölməni su ilə doldurmaq

D) Koşma ilə üstünü bağlamaq

E) Bölməni köpüklə doldurmaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

171. Yanğın həyəcan siqnalı verilərkən hansı fəaliyyətləri yerinə yetirmək lazımdır?

A) İşi dayandırmaq, toplantı məntəqəsinə getmək və növbəti komandanı gözləmək

B) İşi davam etmək və heyətdən yanğının söndürülməsinə nümayəndə ayırmaq

C) İşi dayandırmaq, əşyaları götürmək, otaqları bağlayıb ərazini tərk etmək

D) Bölməni hermetikləşdirmək və sahil yanğınsöndürmə dəstələrini gözləmək

E) Yanğın yerini axtarmaq və onu söndürməyə başlamaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu (Bakı-10.06.1997) Respublikasında yanğın təhlükəsizliyi qaydaları

172. Süni tənəffüs hansı yollar ilə verilir?

A) Yalnız ağızdan-ağıza

B) Yalnız ağızdan-buruna

C) Ağızdan-ağıza, ağızdan-buruna

D) Bədəni masaj etməklə

E) Əl və ayağı hərəkət etdirməklə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

173. Peşə xəstəliyi nədir ?

A) Əmək qabiliyyətini qismən itirməklə nəticələnən xəstəlik

B) Əmək qabiliyyətini müvəqqəti itirməklə nəticələnən xəstəlik

C) Vəzifəsini yerinə yetirərkən aldığı zərərli amillərin təsirindən yaranmış xəstəlik

D) Əmək qabiliyyətini tam itirməklə nəticələnən xəstəlik

E) Əmək qabiliyyətini 3 gündən az olmayaraq itirməklə nəticələnən xəstəlik

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

174. Bədbəxt hadisə baş verən zamanı ilk növbədə iş rəhbərinin vəzifəsi:

A) Zərərçəkənə heç bir kömək etməməli və rəhbərliyə xəbər verməli

B) Həmkarlar ittifaqı təşkilatına xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

C) Sanitariya-epidemioloji xidmətinə xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

D) Zərərçəkənə ilk tibbi yardım göstərilməli və tibb məntəqəsinə çatdırılmasını təşkil etməli və rəhbərliyə xəbər verməli

E) Müəssisənin rəhbərliyinə və zərər çəkənin evinə məlumat verməli

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

175. Zərərli istehsalat amillərinin təsiri nəticəsində yaranan xəstəliy:

A) Peşə xəstəliyi

B) Sarılıq xəstəliyi

C) Sətəlcəm xəstəliyi

D) Şəkər xəstəliyi

E) Qızılça xəstəliyi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

176. Hansı hündürlükdən başlayaraq"Yüksəklikdə görülən işlər"anlayışı qüvvəyə minir?

A) 3.0 m

B) 2.5 m

C) 5.0 m

D) 1.8m

E) 2.10 m

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qərarı ilə 2016-cı ildə təsdiq edilib. Hündürlükdə iş zamanı texniki təhlükəsizlik Qaydaları. Bakı, 2016

177. Kollektiv mühafizə vasitələri nədir?

A) Kənar şəxsləri qorumaq üçün tətbiq edilən vasitələr

B) Tək bir adamı qorumaq üçün tətbiq edilən vasitələr

C) Dəzgahları qorumaq üçün tətbiq edilən vasitələr

D) Bütün sex işçilərini qorumaq üçün tətbiq edilən vasitələr

E) İki və ya çox işçini qorumaq üçün tətbiq edilən vasitələr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999

178. Təxliyyə (köçürmə) planları hansı binalarda tərtib olunur?

A) 10 nəfərdən çox insan olan

B) 100 nəfərdən çox insan olan

C) Hamısında

D) 17 nəfərdən çox insan olan

E) 27 nəfərdən çox insan olan

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

179. Yanğınsöndürmə vasitələrindən istifadə qaydalarını kimlər bilməlidirlər?

A) Sex rəisi

B) Fəhlələr və aparatçıla

C) Qulluqçular

D) Fəhlə və qulluqçuların hamısı

E) Ustalar və çilingərlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

180. Müəssisədə yanğın təhlükəsizliyi qaydalarına kimlər əməl etməlidir?

A) Fəhlə və qulluqçuların hamısı

B) Sex rəisi

C) Qulluqçular

D) Fəhlələr və aparatçılar

E) Ustalar çilingərlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

181. Yanğın təhlükəsizliyinə aid olan normativ sənədlər:

A) Standartlar, yanğın təhlükəsizliyi normaları, qaydaları və təlimatları

B) Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə

C) Sanitariya-epidemioloji qaydalar haqqında Əsasnamə

D) Həmkarlar ittifaqının nizamnaməsi

E) Aktlar, xidməti yazılar və texniki təhlükəsizlik qaydaları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997

182. Məişət və iş otaqlarında hansı elektrik cihazlarından istifadə etmək qadagandır?

A) Slaydoskopdan, telefondan, printerdən

B) Kompyuterdən, printerdən. Proyektordan

C) Kompyuterdən, telefondan, printerdən, kondisionerdən

D) Yüksək tezlikli sobadan, elektrik qızdırıcı cihazlardan, elektrik su qəfədanından

E) Proektordan, kondisionerdən, slaydoskopdan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

183. Fövqəladə hal baş verərsə hansı nömrəyə zəng etmək lazımdır?

A) 112

B) 104

C) 102

D) 103

E) 101

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Fövqaladə Hallar Nazirliyinin qaynar xətti

184. Binalarda yanğına qarşı nə olmalıdır?

A) Pilləkan qəfəsində dəmir qapı

B) Köçürmə sxemləri və işarələri, xəbərdarlıq plakatları, yanğınsöndürmə vəsitələri

C) Təlimatın kecirilməsi üçün xüsusi otaq

D) Dəhlizdə qumla təchiz edilmiş yanğın lövhəsi

E) Mərtəbələrdə əlavə nərdivanla

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

185. Yanğın baş verən zaman ilkin yanğınsöndürmə vasıtələrından kimlər istifadə etməlidir?

A) Sex rəisi

B) Növbə rəisi

C) Fəhlə və qulluqçular

D) Texnoloq

E) Yanğın söndürmə komandiri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

186. Yanğın aşkar etdikdə nə etməli?

A) Dərhal bələdiyyəyə xəbər vermək

B) Dərhal polis mühafizə bölməsinə xəbər vermək

C) İcra hakimiyyətinə xəbər vermək

D) Dərhal yanğından mühafizə bölməsinə xəbər vermək

E) Dərhal əmək müfəttişliyinə xəbər vermək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

187. Fərdi muhafizə vasitələri hansılardır?

A) Tənəffüs orqanları mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri və tibbi mühafizə vasitələri

B) Görmək və eşitmək üçün mühafizə vasitələri

C) Danışmaq üçün mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri

D) Anlatmaq üçün mühafizə vasitələri, ayaq üçün mühafizə vasitələri

E) İtdən və ilandan qorunmaq üçün mühafizə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999